## *ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – 100*
## *ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ – 100*
## *THE NATIONAL LEADER HEYDAR ALIYEV – 100*

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR İN CHIEF***




*UOT 37.0*

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika elmləri doktoru, professor,*
*Əməkdar müəllim*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
https://orcid.org/0000-0002-9210-7141

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ

***Акиф Нурага оглу Аббасов***
*доктор педагогических наук, профессор,*
*Заслуженный учитель*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

# ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

***Akif Nuragha Abbasov***
*doctor of sciences in pedagogy, professor,*
*Honored teacher*
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*

# GREAT LEADER HEYDAR ALIYEV AND THE AZERBAIJAN LANGUAGE

**Xülasə**. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən Azərbaycan dilinin qorunması, həmişəyaşar olması, saflaşdırılması və inkişaf etdirilməsi qayğısına qalmışdır. O, hələ SSRİ-yə daxil olduğumuz illərdə Azərbaycan dilinin dövlət dili statusu almasına çalışırdı. Heydər Əliyev 1978-ci ildə buna nail oldu. Azərbaycan Respublikasının Konstitusiyasında yazıldı: Azərbaycan Respublikasında dövlət dili Azərbaycan dilidir. Təqdim olunan məqalədə Heydər Əliyevin dil siyasətindən danışılır.

***Açar sözlər**: Azərbaycan, Azərbaycan dili, Ümummilli Lider, Ümummilli Lider Azərbaycan dili haqqında, azərbaycançılıq*

**Резюме.** Гейдар Алиев с первых дней прихода к власти заботился о сохранении, увековечении, очищении и развитии азербайджанского языка. Он пытался получить статус азербайджанского языка как государственного еще в годы, когда мы входили в состав СССР. Гейдар Алиев добился этого в 1978 году. В Конституции Азербайджанской Республики записано: государственным языком в Азербайджанской Республике является азербайджанский язык. В представленной статье рассказывается о языковой политике Гейдара Алиева.

***Ключевые слова**: Азербайджан, азербайджанский язык, Общенациональный Лидер, Общенациональный Лидер об азербайджанском языке, азербайджанство*

**Summary**. Heydar Aliyev from the first days of coming to power took care of the preservation, perpetuation, purification and development of the Azerbaijani language. He tried to get the status of the Azerbaijani language as the state language back in the years when we were part of the USSR. Heydar Aliyev achieved this in 1978. The Constitution of the Republic of Azerbaijan states that the state language in the Republic of Azerbaijan is the Azerbaijani language. The presented article tells about the language policy of Heydar Aliyev.

***Key words**: Azerbaijan, Azerbaijani language, National Leader, National Leader about the Azerbaijani language, azerbaijanism*

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda respublikanın rəhbəri seçildi, Azərbaycanın rəhbəri oldu. Onun hakimiyyətə gəlişi ilə xalqımızın inkişaf və tərəqqinə önəm verildi. Azərbaycan dili tarixin müəyyən zamanlarında dövlət dili elan olunmuş, fəqət onun dövlət dili statusu davamlı olmamışdır. Belə ki, doğma Azərbaycan dilimizi birinci dəfə ilk mərkəzləşdirilmiş Səfəvilər dövlətinin (Qızılbaşlar dövlətinin) banisi Şah İsmayıl Xətayi yüksəklərə qaldırılmış, ona dövlət müstəvisi, siyasi müstəvisi bəxş etmişdir. Şah İsmayılın hakimiyyəti illərində diplomatik əlaqələr Azərbaycan dilində aparılmışdı. Şah İsmayıl ana dilimizi şeir dili kimi müstəsna dərəcədə önəmli dəyərləndirərək, "Dəhnamə" ("On məktub") poemasını qələmə almışdır.

Ulu Öndərin 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanında bu xüsusda deyilir: "XVI əsr Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi. Anadilli ədəbiyyatın böyük ustadları Şah İsmayıl Xətai və Məhəmməd Füzuli, xalq ədəbiyyatımızın adı bizə bəlli ilk qüdrətli nümayəndəsi Aşıq Qurbani bu dövrdə yetişmişdir. Əgər şifahi şer dili Qurbaninin əsərlərində əks olunmuşdusa, xalq şeri dilinin yazılı qolu Şah İsmayıl Xətai və Məhəmməd Əmaninin yaradıcılığı ilə təmsil olunmuşdu. Füzulinin dolğun dili isə elmi və fəlsəfi olduğu qədər də xəlqi idi" (1).

Heydər Əliyev hakimiyyətə gəlişi ilə digər sahələrdə olduğu kimi, Azərbaycan dilinin inkişafı, saflaşdırılması, mühafizə etdirilərək qorunması, gündəlik danışıqda, idarəçilikdə işlək olması, dövlət dili statusu qazanılması uğrunda mübarizə aparmışdır. Dil siyasəti onun başlıca vəzifələrindən birinə çevrilmişdi. Keçmiş ittifaqa daxil olduğumuz illərdə müttəfiq respublikaların ana dillərinin dövlət dili kimi statusuna və tətbiqinə ciddi qadağalar vardı. Ümummilli Lider həmin qadağaları məhəl qoymadan rus dili ilə bərabər Azərbaycan dilinin də rəsmiliyinə nail olmuşdu.

Kommunist rejiminin tüğyan etdiyi 1970-ci ildə BDU-nun 50 illik yubileyi keçirilirdi. Ümummilli Lider yubileydə iştirak edəcəkdi. Onun gəlişini böyük intizarlıqla və səbirsizliklə gözləyirdilər.

Alqışlar qopdu. Ulu Öndər artıq yubiley tədbirində idi. Ona söz verdilər. Heydər Əliyev nitqinə başladı. Hamını heyrət bürüdü. Bir anda gurultulu alqışlar qopdu. Sovet rejiminin qılıncının dalının da, qabağının da kəsdiyi bir zamanda fövqəladə hadisə baş vermişdi. Ümummilli Lider Azərbaycan dilində danışırdı. Həmin dövrdə, adətən, bir mənalı olaraq respublika rəhbərlərinin çıxışları rus dilində olurdu.

Respublika rəhbərinin doğma ana dilində çıxışı son dərəcə cəsarətli addım kimi dəyərləndirilə bilərdi.

1970-ci illərin ortalarından etibarən keçmiş ittifaqa daxil olan müttəfiq respublikaların ictimai-siyasi həyatında dil məsələsi bir daha ortaya çıxdı. 1977-1978-ci illər müttəfiq respublikaların başçılarını çətinliklərlə üzləşdirdi. 1977-ci ildə SSRİ-nin yeni Əsas Qanunu – Konstitusiyası qəbul olundu. Bu Konstitusiya ayrı-ayrı müttəfiq respublikalarda hazırlanan yeni konstitusiyalardan ötrü əsas sayılırdı, baza idi. SSRİ Konstitusiyasında isə lap əvvəllərdən dövlət dilinə dair maddə mövcud deyildi. Müttəfiq respublikalarda qəbul olunmuş konstitusiyalarda da haqqında danışılan maddə əks olunmamışdı. SSRİ Konstitusiyası qəbul edilıdikdən sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi.

Rus dilinin hüquqlarının genişləndirilməsi ilə bağlı "vahid dil" siyasəti son dərəcə geniş təbliğ edilirdi. Belə vəziyyətdə ana dili problemini qaldırmaq hədsiz riskli və qorxulu idi. Dil məsələsini ortaya atanlar Sibirə sürgün edilirdi. Müttəfiq respublikaların Mərkəzi Komitələrinin birinci katibləri belə ana dili məsələsini meydana gətirə bilmirdilər. Moskva rus dilinin hegemonluğunu saxlamaqda israrlı idi. Çətinliklərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev dil məsələsində öz mövqeyini irəli sürdü.

Heydər Əliyev SSRİ-nin Əsas Qanunu – Konstitusiyası barədə danışarkən bildirirdi ki, Konstitusiya ölkə vətəndaşlarına təhsil hüququ verib. Həmin hüquq ana dilində oxumaq imkanı verir. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi daşıyır.

Bir müddət keçdi. 1978-ci ildə Ulu Öndər daha bir cəsarətli addım atdı. Keçmiş ittifaqda sürətlə sovetləşmə həyata keçirilirdi. Hətta gündəlikdə belə məsələ dayanırdı ki, SSRİ üzrə vahid "sovet adamı" formalaşdırılsın. Pasportlarda "milliyyəti" qrafasında azərbaycanlı, rus, gürcü, özbək və s. deyil, bütün SSRI vətəndaşları üçün "sovet" sözü yazılsın. Respublikamızda Azərbaycan SSR-in Konstitusiyasının yeni variantı hazırlanırdı. Belə bir vaxtda təsəvvürümüzə gətirək ki, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev böyük çətinliklərə, təzyiqlərə baxmayaraq, Konstitusiyamıza "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" maddəsinin salınmasına nail oldu.

1978-ci il aprelin 2-də IX çağırış respublika Ali Sovetinin Konstitusiyamızın layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına ilə bağlı VII sessiyasında Heydər Əliyev məsləhət bildi ki, 73-cü maddə belə bir redaksiyada formalaşdırılsın: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

İllər keçdi. 1995-ci il idi. BDU-nun 75 illik yubileyi qeyd olunurdu. Ümummilli Lider Heydər Əliyev artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti idi. 25 il öncədəki çıxışını xatırlayaraq dedi: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər."

Ümummilli Lider Heydər Əliyev müxtəlif illərdə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi (1); Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi (2) və dövlət dili (3) ilə bağlı son dərəcə mühüm əhəmiyyətli fərmanlar imzalamışdır.

Dövlət dilinin tətbiqi işinin təkmilləş-dirilməsi ilə əlaqədar 18 iyun 2001-ci il tarixli Fərmanın ilk cümləsi aşağıdakı sözlərlə başlanır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir" (1). Daha sonra qeyd olunur: "Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş

imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir” (1).

“Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanında qərara alınır ki: 1. Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın...

2. ...Prezidentin İcra Aparatına tapşırılsın ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. ...nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər...

4. ... Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin...

5. Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yazıçılar Birliyi ilə birlikdə latın qrafikası ilə yenidən çap olunması təklif olunan elmi və bədii əsərlərin, lüğət və dərsliklərin çap proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Milli Elmlər Akademiyası bir ay ərzində Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə elmi araşdırmaların cari və perspektiv planlarına yenidən baxıb təsdiq etsin və onların yerinə yetirilməsinin gedişi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

7. Respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki:

- yerlərdə istifadə olunan lövhə, reklam tabloları, şüarlar, plakatlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinin qaydalarına uyğunlaşdırılsın...

- yerlərdə Azərbaycan dilinin və latın qrafikasının tətbiqi işinə nəzarəti gücləndirsinlər...

8. ... əcnəbi ölkələrdə istehsal edilmiş və Azərbaycanda nümayiş etdirilmək üçün alınmış kino və televiziya məmulatının Azərbaycan dilinə dublyajı işinin lazımi səviyyədə qurulması və ölkə ərazisində xarici kino- və telefilmlərin Azərbaycan dilində nümayiş etdirilməsi...

9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

-ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun 1-ə qədər bütövlükdə latın qrafikasına keçməsini təmin etsin;

Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, Azərbaycan dilinin işlənməsinə və inkişafına müqavimət göstərmək, onun hüquqlarının məhdudlaşdırılmasına cəhd etmək kimi hallara, latın qrafikasının tətbiq olunmasına maneələr törədilməsinə görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin (1).

Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli Lider demişdir: "Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var".

Azərbaycan dilinin dövlət dili statusu alması Ümummilli Lider Heydər Əliyevin son dərəcə böyük tarixi xidmətlərindəndir.

Ulu Öndərin sərəncamlarına uyğun olaraq, 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası”, 100 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası”, 100 cildlik “Azərbaycan ədəbiyyatı kitabxanası” seriyasından yeni nəşrlər meydana gəldi və onlar ölkəmizin kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunun zənginləşməsinə imkan verdi. Ana dilində çoxsaylı, çoxsahəli dərsliklər və kitablar nəşr edildi.

Ana dili xalqların milli sərvəti, varlığının təsdiqidir. Hazırda Yer üzündə 50 milyondan çox azərbaycanlı Azərbaycan dilində danışır, özünün milli və mənəvi mədəniyyətinə, tarixinə görə iftixar hissləri keçirir, müstəqil ölkəmizlə fəxr edir. Ulu Öndər demişkən, “Milli varlıq və birliyin möhkəmlənməsində mühüm rol oynayan dil, eyni zamanda mənəvi və mədəni zənginləşmə, elmi-texniki inkişaf üçün zəruri olan ünsiyyət vasitəsidir. Ana dili hər bir xalqın, hər bir millətin mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür”.

“Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il,

552 nömrəli Fərmanında (2) nəzərdə tutulduğu kimi, hər il ölkəmizdə avqust ayının 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsünə əsasən Naxçıvanda və Mingəçevirdə "Ana dili" abidəsinin qoyulmuşdur.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun 20 maddəni özündə birləşdirən 3 fəsildən ibarətdir. "Ümumi müddəalar" adlı I fəslə 3 maddə ( "Dövlət dilinin hüquqi statusu", "Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik" və "Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri") daxildir. Qanunun II fəsli "Dövlət dilinin işlənməsi, qorunması və inkişafı" adlanır və 15 maddəni özündə birləşdirir. Diqqət yetirək: Maddə 4. Dövlət dilinin rəsmi mərasimlərdə işlənməsi. 5. Dövlət dilinin təhsil sahəsində işlənməsi. 6. Dövlət dilinin televiziya və radio yayımlarında işlənməsi. 7. Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi. 8. Dövlət dilinin xüsusi adlarda işlənməsi. 9. İnzibati ərazi bölgüsü ilə əlaqədar dövlət dilindən istifadə. 10. Coğrafi obyektlərin adlarında dövlət dilinin işlədilməsi. 11. Dövlət dilinin hüquq mühafizə orqanlarında, Silahlı Qüvvələrdə, notariat fəaliyyətində, inzibati icraatda, məhkəmə icraatında və inzibati xətalar üzrə icraatda işlənməsi. 12. Dövlət dilinin beynəlxalq yazışmalarda işlənməsi. 13. Dövlət dilinin normaları. 14. Dövlət dilinin əlifbası. 15. Dövlət dilinin nəşriyyat işində işlənməsi. 16. Dövlət dilinin vətəndaşların şəxsiyyətini təsdiq edən rəsmi və vahid nümunəli sənədlərdə işlədilməsi. 17. Dövlət dilinin dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, hüquqi şəxslərin, onların nümayəndəliklərinin və filiallarının, idarələrin adında işlədilməsi. 18. Dövlət dilinin qorunması və inkişafı (3).

Ulu Öndər Heydər Əliyev hər bir şəxsin ana dilinə düzgün, hərtərəfli və elmi əsaslar baxımından yiyələnməsini məqsədəuyğun sayırdı. Bu xüsusda deyirdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq".

Yenidən müstəqilliyimizə qovuşduqdan sonra "Dil haqqında qanuna" uyğun olaraq, Azərbaycan dilində sərbəst danışmaq və yazmaq bütün Azərbaycan vətəndaşından tələb edilir.

Heydər Əliyev öz dilini bilməyən, həmin dildə danışmayan insanları bədbəxt hesab edirdi. Bu barədə deyirdi: "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır"

Heydər Əliyevin sözləridir: "Hər bir millət üçün onun dili çox əzizdir. Çox illər ana dilimiz, Azərbaycan dilimiz həyatımızıda geniş yer ala bilməmişdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ölkələrinin də dilini mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin".

Həmin sözlərdə dərin həqiqət vardır. Biz Azərbaycan dilini qoruyub saxlamalı, yaşatmalı və inkişaf etdirməliyik. Bu bizim müqəddəs borcumuz olmalıdır. Unutmamalıyıq ki, milləti məhv etmək üçün, hər şeydən əvvəl onun dilini məhv edirlər, həmin dili unutdururlar.

Ümummilli Liderimiz böyüyən nəslə doğma Azərbaycan dili vasitəsilə, onun köməyilə dünyanı dərk etməyi məsləhət bilirdi. Bildirirdi ki, əcnəbi dilləri öyrənmək də lazımdır, lakin ilk növbədə hər birimiz öz ana dilimizə dərindən yiyələnməliyik.

Heydər Əliyevə görə, Azərbaycanda, Türkiyənin Şərq hissəsində, İranda yaşayıb fəaliyyət göstərən insanlar yüz illərlə əcnəbi dövlətlərin və hökmdarların əsarəti altında olduqları zamanlarda da öz dilini itirməyib, yaşadıblar. Dilimiz 1978-ci il Konstitusiyamızda dövlət dili statusu qazanıb. Oxuyuruq: "Məhz bu dövrdə biz Nizami Gəncəvini qaldırıb dünyaya tanıda bilmişik. Məhəmməd Füzulini də, Nəsimini də, Mirzə Fətəli Axundovu da, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu Ağa Bakıxanovu da tanıtmışıq və bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə məgər dünyada bu qədər məşhur olublarmı? Yox, heç vaxt. Bu, bizim dövrümüzün bəhrəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur".

Heydər Əliyevin belə bir fikri var: "Aqillər deyib ki, xalqın, millətin nəyini əlindən alırsansa al, o, yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, yox olar. Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil – millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur!"

Bu ara Bəxtiyar Vahabzadə "Latın dili" şeiri yada düşür. Xalq şairi yazırdı:

Latın dili!
Hər sözündə dünya boyda yük daşıyır,
Latın dili! –
Millət ölüb, dil yaşayır.
"Ana" deyən, "torpaq" deyən,
"Vətən" deyən yox bu dildə.
Ancaq yenə yaşar bu dil.

Gəlin fikir yürüdək. Hansı yaxşıdır? Millət yox olub, fəqət dili çox geniş şəkildə işlənir, millətinin başını ucaldır. Dünya xalqları bu dildən, bu dilin mənsub olduğu xalqın dahi insanlarının, filosoflarının əsərlərindən, qiymətli fikirlərindən, kəşflərindən bol-bol bəhrələnirlər.

Millət yaşayır, lakin dilini əlindən alıb, özünü də hansısa dövlət öz boyunduruğu altına salıb. Hansı şərəflidir?

Yeri gəlmişkən, Xəlil Rzanın "Ana dilim" şeirini də diqqət mərkəzinə gətirək:

İllər ötdü, yaşa doldum.
Anladım ki, ana dilim
Ürəyimdən çıxmaz mənim,
doğransam da dilim-dilim.
Anladım ki, sinəmdəki sözlər deyil,
babaların nəfəsidir.

Ulu Öndər məsləhəti bu idi ki, əcnəbi dilləri öyrənərkən öz dilini unutmaq olmaz. Ana dilini başqa dilə dəyişmək yolverilməzdir. Diqqət yetirək: "Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz".

Ümummilli Liderimizin qənaətincə, Azərbaycan dili müxtəlif ölkələrdə yaşayan çox milyonlu azərbaycanlıların milli birliyinin yaradılmasında və bir-biri ilə əlaqələrinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət daşıyır.

Ulu Öndərə görə, millətin milliliyini saxlayan onun dilidir. Bu xüsusda Heydər Əliyev deyirdi: "Musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır".

Heydər Əliyev Azərbaycan dilinin dövlət dili kimi yaşamasını, möhkəmlənməsini, inkişaf etməsini ən böyük nailiyyətlərimizdən biri kimi dəyərləndirirdi. Göstərirdi ki, "Bu, təkcə dil məsələsi deyil, bu həm də azəbaycançılıq məsələsidir."

Ümummilli Liderimiz Heydər Əliyev kimi onun varisi İlham Əliyev də dönə-dönə Azərbaycan dilinin qorunub saxlanması, yaşadılması və inkişaf etdirilməsi məsələsini diqqət mərkəzində saxlayırdı. Diqqət yetirək: **"**Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir".

Bəli, bu, bizim hamımızın vəzifəsidir. Lakin bir sıra hallarda üzərimizə düşən vəzifəyə laqeyd münasibət bəsləyirik.

Bu fikirdən çıxış edərək, yol verilən qüsurları diqqətə çatdıraq:

1. Öz sözlərimiz ola-ola yerli-yersiz rus sözlərinə müraciət edilir. Məsələn, папа, мама, фактор, критерия, светафор, закас, пляж, шотка, пудра, мель, ручка, фортучка, ражок, паника, крыса, мыщь, пол, потолок, розетка, сразу, морожна, семичка, холодельник, остановка, духовка, отказ, запчасть, молодес, уже, проста və s.

2. Azərbaycan dilində danışa-danışa bəzən əcnəbi dildən sözlərin işlənməsi. Məsələn, "Все равно, mən öz sözümdə qalacağam", "Неужели o belə fikirləşir" və s.

3. Azərbaycandan fərqli olaraq heç bir xarici ölkədə həmin ölkənin vətəndaşları öz aralarında başqa bir dildə danışmırlar. Almaniyada almanlar öz aralarında yalnız alman dilində, İngiltərədə ingilislər, Amerikada amerikalılar – yalnız ingilis dilində, Gürcüstanda gürcülər – gürcü dilində, Rusiyada ruslar – rus dilində, Fransada fransızlar – fransız dilində, İtaliyada italyanlar – italyan dilində danışırlar və s. Bizdə dəb düşüb. iki azərbaycanlı bir-biri ilə rus dilində danışır. Burada Cəlil Məmmədquluzadə "Anamın kitabı" əsəri yada düşür.

4. Azərbaycan dilində şəxs əvəzlikləri vardır: mən, sən, o (tək), biz, siz, onlar (cəm ifadə

edir). Danışıqda "bizlər", "sizlər" sözləri işlədilir. Bu, başadüşülməzdir. "Mən" şəxs əvəzliyinin cəmi "bizdir". Bəs "bizlər" nə deməkdir? İki dəfə cəm yaradılır. Eləcə də. "Sən" şəxs əvəzliyinin cəmi "siz"dir. Bəs "sizlər" nəyi ifadə edir? Yenə də "siz" şəxs əvəzliyini.

5. Əcnəbi dillərdə olan (əsasən də ingilis dilində) reklamlar, mağazaların, ofislərin, müxtəlif obyektlərin adları Bakı şəhərini başına götürüb. Küçələri gəzərkən, yüzlərlə, bəlkə də minlərlə əcnəbi dildə yazılmış belə adlara rast gəlmək mümkündür. Təkcə Bakının Yasamal rayonunun Şərifzadə küçəsində hələ yalnız və yalnız 100-`150 metrlik küçə boyu gördüklərimiz buna əyani sübutdur: "Bada mecsoso", "Kenzo Baku" (geyim satışı mağazasının adı), ExparCo", "Love My World" (Ev üçün satılan əşyalar mağazası)? "NV NAYA bontique" (geyim satışı mağazası), "Big Boss" (kişi geyimləri, ayaqqabı və s. mağaza), "Miss Today", "Sherif Man" (kişi geyimləri, ayaqqabı və s. mağaza), "Papa Jonns Papoto Kids" (uşaq geyimləri mağazası), "Sciera Collection" və s. və i.a.

Hələ bir küçə boyu uzanıb gedən, bir küçə boyu yerləşən çox az qisim ofis, mağaza, obyekt və s. adını (əcnəbi dildə olan) nümunə gətidik.

6. Restoranlara və s. əcnəbi adlar qoyulur.

7. Azərbaycan dilinin qrammatik qaydaları bəzən gözlənilmir. Başlıqların bütün sözlərinin baş hərfləri böyük yazılır.

Heydər Əliyevin sözləridir: "Doğma Azərbaycan dilində danışmağı özünə rəva bilməyənlər, xarici bir dildə, çox vaxt rusca danışmağı üstünlük, mədəniyyət hesab edənlər! Lütfən oyanın. Siz müstəqil bir ölkədə yaşayırsınız və bu ölkənin adı Azərbaycandır! Sovet rejiminin, rus kultunun tüğyan etdiyi bir dövrdə doğulub, süurlu həyatlarının böyük bir hissəsini həmin illərdə yaşayanları, rusca oxuyub, rusca düşünənləri bəlkə də başa düşərəm. Ancaq azad, suveren, müstəqil bir ölkədə, azərbaycanlı atadan və azərbaycanlı anadan dünyaya gələn bir uşağın, bir yeniyetmənin, bir gəncin öz dilində danışmaması və ya danışa bilməməsi nə başa düşüləndir, nə də bağışlanandır".

Azərbaycan dilinin təbliği, saflaşdırılması, qorunub saxlanması istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xidmətləri də böyükdür. Cənab Prezident "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli, 56 nömrəli Sərəncam; "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 12 yanvar 2004-cü il tarixli, № 55 nömrəli Qanun; "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 9 aprel 2013-cü il tarixli, 2837 nömrəli Sərəncam; "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmanı imzalamışdır.

Haqqında söz açılan bütün rəsmi sənədlər dövlətimizin Azərbaycan dilinə böyük qayğısından xəbər verir.

**Problemin aktuallığı**. Heydər Əliyev ideyaları, Ümummilli Liderin irsi həmişə aktual olmuşdur, aktual olaraq qalacaqdır.

**Problemin yeniliyi**. Məqalədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin qorunması, yaşadılması, inkişaf etdirilməsi və saflaşdırılması ilə bağlı fikirləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 iyun 2001-ci i, № 506 https://e-qanun.az/framework/3568
2. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı.. Bakı şəhəri, 9 avqust 2001-ci il, № 552. https://e-qanun.az/framework/2811
3. "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 sentyabr 2002-ci il, № 365-IIQ. https://e-qanun.az/framework/1865
4. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 12 yanvar 2004-cü il, № 56. https://e-qanun.az/framework/5427
5. "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 12 yanvar 2004-cü il, № 55. https://e-qanun.az/framework/5426

6. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 9 aprel 2013-cü il, № 2837. https://e-qanun.az/framework/25537
7. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 1 noyabr 2018-ci il. https://president.az/az/articles/view/30563
8. T.H. Nəcəfli. Bütöv Azərbaycanın qurucusu: görkəmli dövlət xadimi Şah İsmayıl Səfəvi, s. 87.

**E-mail**: a.abbasov@arti.edu.az
**Rəyçilər**: *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.elm.dok. prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 15.08.2023